Benqt Yanqfeldt

# NOBEL QARDAŞLARI

İsveçli ixtiraçılar nəhəng sənaye imperiyalarını necə yaratdılar

BENQT YANQFELDT

# NOBEL QARDAŞLARI

## İSVEÇLİ İXTİRAÇILAR NƏHƏNG SƏNAYE İMPERİYALARINI NECƏ YARATDILAR

qanun nəşriyyatı

© Bengt Jangfeldt

Immanuel Nobel & Söner:
svenska snillen i tsarernas Ryssland

First published by Albert Bonniers förlag, 2020,
in collaboration with Center for Business History.
www.naringslivshistoria.se
www.albertbonniersforlag.se

Bu kitabın Nobellərin Azərbaycandakı irsinin 150 illiyinin qeyd edilməsi məqsədi ilə Azərbaycan dilində nəşr edilməsi İsveçin Biznes Tarixi Mərkəzi (CfN), İsveçin Bakıdakı Səfirliyi və Azərbaycanın Stokholmdakı Səfirliyinin birgə təşəbbüsüdür.

CfN dünyanın aparıcı biznes arxivlərindən biridir.
Mərkəzin Uppsala və Bromma şəhərlərindəki arxivlərində
7000-dən çox şirkət haqqında tarixi sənədlər mövcuddur.

Tərcümə: Nadiya Qafarova
Redaktə: Sirus Rüstəmov
Dizayn: Åsa Kax Ideberg

**Benqt Yanqfeldt**
**NOBEL QARDAŞLARI**
**İsveçli ixtiraçılar nəhəng sənaye imperiyalarını necə yaratdılar**
Bakı, Qanun nəşriyyatı, 2023, 456 səh.

Ölçü: 170x240 mm
Cild: qalın
Çapa imzalandı: 22.06.2023

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-667-7

Bakı, 2023

# MÜNDƏRİCAT


Ön söz ........................................ 7

I
İmmanuel Nobel ........................................ 11
İmmanuel Nobel və oğulları ........................................ 39
İmmanuel və Andrietta ........................................ 79

II
Lüdviq ........................................ 123
Robert ........................................ 149
Robert və Lüdviq ........................................ 173
Nobel qardaşları ........................................ 201
Bir dövrün sonu ........................................ 235

III
Üçüncü nəsil ........................................ 259
Emmanuel ........................................ 287
Çiçəklənmə illəri ........................................ 309
Sosial təminat və xeyriyyəçilik ........................................ 327
Siyasi qeyri-stabillik, iqtisadi inkişaf və müharibə ........................................ 349
1917-ci il ........................................ 373

IV
Bayramdan sonra ........................................ 395
Postskriptum ........................................ 421
P. P. S. ........................................ 443
Son söz ........................................ 445
Şəcərə ağacı ........................................ 447
Mənbələr ........................................ 448
Qeydlər ........................................ 453

# ÖN SÖZ

Nobel adı ilk növbədə Alfred Nobellə assosiasiya olunur. Onun yüz il əvvəl təsis etdiyi mükafatı nəzərə alsaq, bu, tamamilə təbiidir. Hamı bilməsə də, çoxlarına məlumdur ki, Alfred görkəmli alim və bacarıqlı sahibkar olub. Daha az bilinən fakt isə odur ki, sonradan "dinamit" adı almış, partlayıcı maddə olan nitroqliserini Alfred atası İmmanuellə birgə kəşf edib.

Alfred Nobel son dərəcə istedadlı ailədən çıxmışdı. Atası nadir rast gəlinən universal dahilərdən idi: memar, ixtiraçı, mühəndis və konstruktor kimi müxtəlif vacib peşələri özündə birləşdirən İmmanuel Nobelin cəmi bir neçə illik təhsili var idi. O, İsveçdə ilk ponton körpüsünü tikmiş, binaları layihələndirmiş, sualtı minaları icad etmiş, buxar mühərrikləri hazırlamışdı. Sonralar təkcə Alfred deyil, qardaşları Lüdviq və Robert də onun yolunu davam etdirmişdilər.

Qardaşlar Stokholmda anadan olmuş, lakin Peterburqda böyümüşdülər. Ataları orada mexanika emalatxanasına rəhbərlik edirdi. Rusiyanın paytaxtında 21 il yaşadıqdan sonra Alfred vətənə qayıtsa da, qardaşları orada qaldı. Lüdviq atasının emalatxanasını Rusiyanın ən uğurlu maşın zavodlarından birinə çevirdi, Robert isə Bakıda imperiyanın ən böyük neft sənayesi şirkəti olan "Branobel"i yaratdı. Lüdviqin oğlu Emmanuel isə Nobellərin sənaye imperiyasını ölkənin ən güclülərindən birinə çevirdi.

Bütün bunlar sahibkarlığın ləğv edilməsinə səbəb olan 1917-ci ilin inqilab tufanlarında əldən çıxdı. Nobel ailəsi 1838-ci ildən yaşadığı Rusiya imperiyasını tərk etməli oldu. Sovet İttifaqında onların adı unuduldu.

Nobellər təkcə uğurlu sahibkar deyildilər, həm də işçilərə fərqli münasibət göstərməklə yeni bir cığır açmışdılar. Hələ 1870-ci ildə onlar gəlir bölgüsü sistemini tətbiq etmişdilər. Bu bölgü əsasında mühəndislər və işçilər mənfəətin 40 faizə qədərini ala bilirdilər. Onlar Peterburqdakı mexaniki zavodun və Zaqafqaziyadakı neft şirkətlərinin fəhlələri üçün yaşayış evi tikir, onların uşaqları üçün məktəblər açırdılar. Birinci Dünya müharibəsi illərində Qırmızı Xaç xəstəxanaları həmin müəssisələrin binalarında yerləşirdi. Nobel ailəsinin üzvləri həmişə rifah və demokratiya azlığından əziyyət çəkən ölkədə nümunəvi kapitalistlər idilər.

Özünün mükafatını təsis etməklə Alfred Nobel beynəlxalq şöhrət qazandı. Bu mükafat olmasaydı, o, bu qədər şöhrət qazanmayacaqdı. Ya da partlayıcı maddələr və hərbi texnika istehsalı sayəsində varlanan ixtiraçı və sahibkar kimi tanınacaqdı. Alfredin atasının və qardaşlarının fəaliyyətləri də az təqdirəlayiq deyildi. İmmanuel Nobel və oğullarından ibarət sahibkar ailəsində istedad amilinin necə bölüşdürülməsi, əslində, açıq sualdır. Kitabdakı ailə xronikasında bu suala aydınlıq gətirməyə cəhd edilir.

# I



# İMMANUEL NOBEL

Təkcə İsveç - Çar Rusiyası tarixində deyil, həm də bütün dünyada misli-bərabəri olmayan ailə və biznes xronikasının birinci fəsli 20 dekabr 1838-ci ildən başlayır. Dünyada az-az rast gəlinən nüfuzlu və ən zəngin sənaye imperiyasının təməli məhz həmin gün qoyulmuşdu.

Hər şey İmmanuelin 1801-ci il martın 24-də doğulduğu Yevle şəhərindən başladı. O, böyük İmmanuel Nobel (1757-1839) ilə Brita Katarina (Kaysa) Alberqin (1770-1823) nikahından doğulan ilk övlad idi. Valideynlərinin hər ikisi bu izdivaca qədər evli olmuşdu. Ata İmmanuel birinci həyat yoldaşı Anna Russeli 1795-ci ildə, Brita Katerina isə əri Berndt Messmanı 1798-ci ildə itirmişdi.

Ata İmmanuel Nobel əvvəlcə feldşer, sonra isə İsveçdə və Finlandiyada həkim işləyib. O, 1788-1789-cu illərdə Rusiya ilə müharibə zamanı Svensksund ətrafındakı döyüşlərdə az qala əsir düşəcəkdi. 1790-cı illərdə o, Venersborq və Buros şəhərlərində işləyib, 1800-cü ildə isə Stokholmdan yüz yetmiş kilometr şimalda yerləşən Yevle şəhərində "vilayət tibb köməkçisi" (əyalət təbibi statusuna bərabərdir) kimi xidmətə başladı. İmmanuelin böyük qardaşı Ulof həmin şəhərdə yaşayır və dabbaq işləyirdi. Elə ikinci həyat yoldaşı ilə də İmmanuel orada tanış oldu. Onlar 29 iyun 1800-cü ildə evləndilər və düz doqquz ay sonra cütlüyün ilk övladı İmmanuel dünyaya gəldi. 1803-cü ildə onların Betti, iki ildən sonra isə Amaliya adlı qızları da anadan oldu. Nobel ailəsi Brita Katerinanın mərhum ərindən miras qalan evdə yaşayırdı. Hər ikisinin əvvəlki evliliklərdən də övladları vardı. Ata İmmanuel yeddi yaşlı Anna-Şarlottanı, Brita Katarina isə bir oğul və iki qız tərbiyə edirdi. Beləliklə, ailədə yeddi uşaq böyüyürdü: İmmanuelin iki doğma bacısı, atabir ögey bacısı və qardaşı və anabir iki bacısı vardı. Yeddi uşağı saxlamaq asan deyildi, amma bütün çətinliklərə baxmayaraq, nikahı uğurlu hesab etmək olardı.

Ata İmmanuel bir müddət ölkənin şimalında, Sundsvall şəhərindəki hərbi xəstəxanada feldşer işlədi. 1808-ci ildə o, şəhər həkimi vakansiyası üçün müraciət etdi, lakin onun namizədliyi qəbul edilmədi və o, Yevleyə qayıtdı.




4-cü məhəllədə İmmanuelin böyüdüyü 121-ci həyətin 1851-ci ilə – yenidən qurulanadək olan görünüşü (aşağıdakı bina).

Ata İmmanuelin böyük oğlu ilə bağlı böyük planları vardı. İstəyirdi ki, oğlu onun yolu ilə gedib həkimlər sülaləsini davam etdirsin. Lakin uzunillik təhsil alma pesrpektivi gənc İmmanuelin ürəyincə deyildi. Ailə başçısının arzusunu ögey oğlu Bernhard Messman (İmmanueldən on bir yaş böyük idi) həyata keçirdi. Bernhard 1810-cu ildə Uppsala Universitetində buraxılış imtahanlarını verib, Stokholmda Sveya leyb-qvardiyasında alay həkimi kimi xidmətə başladı.

İmmanuel dərslərə həvəssizliyini qızıl əlləri ilə kompensasiya edirdi. Gənc oğlan praktik ağlı ilə fərqlənirdi və bir müddət çəkməçi köməkçisi işlədi. Səkkiz aya işi mənimsədikdən sonra artıq bütün ailə üçün "dözümlü ayaqqabılar" tikə bilirdi. Eyni zamanda, bu gənc çox bacarıqlı idi və "heç kəsin faydasını hələ anlamadığı, məktəb tapşırıqları ilə az əlaqəsi olan təcrübələr onun əyləncəsinə çevrilmişdi". Məsələn, bir gün İmmanuel atasının